**UDC:** 070.; 930.85.
**LBC:** 76.02; 76.029
**MJ №** 302
10.33864/2617-751X.2025.v8.i4.85-111

# SIGMUND FREUD AND ANALYSIS OF HIS THEORY OF PSYCHOANALYSIS

**Nargizkhatun Hasanova***
**Anar Gafarov****

**Abstract.** The article analyzes one of the most significant theories in the science of psychology- the theory of psychoanalysis- by examining its essence, the process of its formation, and the influence of its founder Sigmund Freud's personal experiences on the development of the theory. The fact that Freud's psychological perspectives continue to spark scientific debate today, and that his views on religion, personality development, and the structure of the psyche remain subjects of extensive controversy, clearly highlights the relevance of this research. The study is based primarily on the works of Sigmund Freud, alongside a theoretical analysis and comparison of other relevant sources and scholarly texts. The main hypothesis and thesis of the research propose that the events Freud experienced during his childhood formed the foundation of his psychological theory, and that these experiences significantly influenced both his attitude towards religion and his ideas regarding the structure of personality. The central research question addresses the extent to which Freud's early social and psychological traumas, as well as the experiences and events he encountered in later stages of his life, played a role in shaping his personality and, consequently, the psychoanalytic theory he developed. The study concludes that certain aspects of the theory of psychoanalysis still present scientific ambiguities and contradictions, underscoring the need for more in-depth and multifaceted research on the topic in the future. The article ends by emphasizing the demand for scholarly inquiry in this field within the country and expresses the hope that this work will serve as a stimulus for further research.

**Keywords:** Psychology, Psychoanalysis, Sigmund Freud, Consciousness, Unconscious, Instinct, Id, Ego, Superego

---

* PhD student,
Theology Institute of Azerbaijan, specialty of Religious Studies; Baku, Azerbaijan
E-mail: nargizxatunhasanova@gmail.com
https://orcid.org/0000-0003-0929-2452
** Doctor of Philosophy in Philosophy, Associate Professor
Theology Institute of Azerbaijan, Head of the Department of Religious Studies; Baku, Azerbaijan
E-mail: anargafarov@ait.edu.az
https://orcid.org/0000-0002-3113-1287

**To cite this article:** Hasanova, N., & Gafarov, A. [2025]. SIGMUND FREUD AND ANALYSIS OF HIS THEORY OF PSYCHOANALYSIS. *"Metafizika" journal, 8*(4), pp.85-111.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.85-111

**Article history:**
*Received: 02.04.2025*
*Accepted: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 070.; 930.85.
**ББК:** 76.02; 76.029
**MJ №** 302
10.33864/2617-751X.2025.v8.i4.85-111

# АНАЛИЗ ЗИГМУНДА ФРЕЙДА И ТЕОРИИ ПСИХОАНАЛИЗА

**Наргизхатун Гасанова***
**Анар Гафаров****

**Абстракт.** В статье анализируются сущность одной из важнейших теорий в науке психологии- теории психоанализа, процесс её формирования, а также влияние личного жизненного опыта её основателя Зигмунда Фрейда на становление данной теории. Актуальность исследования обусловлена тем, что психологические взгляды Фрейда до сих пор являются предметом научных дискуссий, а его идеи о религии, развитии личности и психологической структуре продолжают вызывать широкомасштабные споры. Исследование основано преимущественно на трудах З. Фрейда, а также на теоретическом анализе и сопоставлении других существующих источников и научных текстов. Основная гипотеза и тезис работы заключается в том, что события, пережитые Зигмундом Фрейдом в детстве, легли в основу его психологической теории, а полученный им опыт оказал существенное влияние как на его отношение к религии, так и на его взгляды на структуру личности. Фундаментальный вопрос исследования заключается в том, насколько социально-психологические травмы, полученные Фрейдом в детском возрасте, а также события и жизненный опыт, с которыми он столкнулся на последующих этапах своей жизни, повлияли на формирование его личности и разработку теории психоанализа. В результате исследования выявлено, что в теории психоанализа по сей день сохраняются научно неопределённые вопросы и внутренние противоречия, что указывает на необходимость дальнейшего глубокого и многопланового изучения темы. Статья подчёркивает существующий в нашей стране спрос на научные исследования в данной области и завершается надеждой на то, что проведённая работа станет стимулом для будущих исследований.

**Ключевые слова:** Психология, Психоанализ, Зигмунд Фрейд, Сознание, Бессознательное, Инстинкт, Ид, Эго, Супер-эго

---

* Докторант,
Азербайджанский институт теологии, специальность «Религиоведение»; Баку, Азербайджан
E-mail: nargizxatunhasanova@gmail.com
https://orcid.org/0000-0003-0929-2452
** Доктор философских наук, доцент
Азербайджанский институт теологии, заведующий кафедрой религиоведения; Баку, Азербайджан
E-mail: anargafarov@ait.edu.az
https://orcid.org/0000-0002-3113-1287
**Цитировать статью:** Гасанова, Н., & Гафаров, А. [2025]. АНАЛИЗ ЗИГМУНДА ФРЕЙДА И ТЕОРИИ ПСИХОАНАЛИЗА. *Журнал «Metafizika», 8*(4), c.85-111.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.85-111

**История статьи:**
*Статья поступила в редакцию: 02.04.2025*
*Отправлена на доработку: 02.06.2025*
*Принята для печати: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*"Metafizika" Journal*
***Vol 8, issue 4, serial 32, 2025. pp.85-111***
***AcademyGate Publishing***
***p-ISSN 2616-6879; e-ISSN 2617-751X***

**UOT:** 070.; 930.85.
**KBT:** 76.02; 76.029
**MJ №** 302
10.33864/2617-751X.2025.v8.i4.85-111

## ZİQMUND FREYD VƏ PSİXOANALİZ NƏZƏRİYYƏSİNİN TƏHLİLİ

**Nərgizxatun Həsənova***
**Anar Qafarov****

**Abstrakt.** Məqalədə psixologiya elminin mühüm nəzəriyyələrindən biri olan Psixoanaliz nəzəriyyəsinin mahiyyəti, formalaşma prosesi və qurucusu Ziqmund Freydin şəxsi təcrübələrinin bu nəzəriyyənin təşəkkülünə olan təsiri müzakirə obyektinə çevrilərək təhlil olunur. Freydin psixoloji baxışlarının bu günə qədər davam edən elmi müzakirələrə səbəb olması və onun dinə, şəxsiyyətin inkişafına və psixoloji strukturuna dair fikirlərinin hələ də geniş müstəvidə mübahisələrə səbəb olan mövzulardan biri olması bu araşdırmanın aktuallığını bariz şəkildə ortaya qoyur. Tədqiqat mövzuya dair əsasən Z.Freydin əsərləri olmaqla, digər mövcud mənbə və elmi mətnlərin teorik təhlili və müqayisəsi metoduna əsaslanır. Tədqiqatın əsas hipotezi və tezisi ondan ibarətdir ki, Ziqmund Freydin uşaqlıqda yaşadığı hadisələr onun psixoloji nəzəriyyəsinin əsasını təşkil etmiş və bu təcrübələr onun həm dinə qarşı münasibətinə, həm də şəxsiyyətin strukturuna dair fikirlərinə ciddi təsir göstərmişdir. Araşdırmanın fundamental sualı Freydin psixoanaliz nəzəriyyəsinin formalaşmasında onun uşaqlıq dövründən etibarən aldığı sosial-psixoloji travmaların, o cümlədən psixoloqun həyatının sonrakı mərhələlərində qarşılaşdığı hadisələrin, yaxud yaşadığı təcrübələrin onun şəxsiyyətinin formalaşmasında nə dərəcədə təsirinin olub-olmadığına dairdir. Araşdırmanın gəldiyi nəticə ondan ibarətdir ki, Psixoanaliz nəzəriyyəsində hələ də elmi baxımdan qeyri-müəyyən olan bəzi məsələlər və ziddiyyətlər özünü göstərir ki, bu da mövzunun gələcəkdə daha dərin və çoxşaxəli şəkildə tədqiq edilməsinə ehtiyac doğurur. Məqalə ölkəmizdə bu sahədə elmi araşdırmalara olan tələbatı vurğulayaraq, aparılan işin gələcək araşdırmalara stimul olacağı ümidi ilə tamamlanır.

**Açar sözlər:** Psixologiya, Psixoanaliz, Ziqmund Freyd, Şüur, Təhtəlşüur, İnstinkt, İd, Eqo, Super-eqo

---

* Doktorant,
Azərbaycan İlahiyyat İnstitutu, Dinşünaslıq ixtisası; Bakı, Azərbaycan
E-mail: nargizxatunhasanova@gmail.com
https://orcid.org/0000-0003-0929-2452
** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan İlahiyyat İnstitutu, Dinşünaslıq kafedrasının müdiri; Bakı, Azərbaycan
E-mail: anargafarov@ait.edu.az
https://orcid.org/0000-0002-3113-1287
**Məqaləyə istinad:** Həsənova, N., & Qafarov, A. [2025] ZİQMUND FREYD VƏ PSİXOANALİZ NƏZƏRİYYƏSİNİN TƏHLİLİ. *"Metafizika" jurnalı, 8*(4), səh.85-111.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.85-111

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 02.04.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 02.06.2025*
*Çapa qəbul edilmişdir: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

İstər psixologiya sahəsi, istərsə də digər humanitar sahələrdə tanınan Ziqmund Freyd şəxsiyyəti və onun psixoanaliz nəzəriyyəsi hər zaman elmi tədqiqat sahələrində geniş müzakirə obyektinə çevrilmişdir. Z.Freydin istifadə etdiyi üsul və metodologiya həm qurucusu olduğu Psixoanaliz nəzəriyyəsi, həm də psixologiya sahəsinə gətirdiyi yeniliklər baxımından öz aktuallığını həmişə qoruyub saxlamışdır. Xarici ədəbiyyatlara nəzər saldıqda bu mövzuda qələmə alınmış çoxlu sayda tədqiqat işi, kitab və məqalə ilə rastlaşırıq. Tədqiqat əsnasında apardığımız müşahidələrimiz onu göstərir ki, dünya miqyasında psixologiya sahəsində tədqiqat aparan bir çox elm adamları psixoanaliz nəzəriyyəsini müxtəlif aspektlərdən geniş müzakirə obyektinə çevirmişlər. Bu mövzu ilə əlaqəli mənbələrə baxdıqda, Freydin daha çox din haqqındakı görüşləri, şəxsiyyətin inkişaf mərhələləri nəzəriyyəsi və Edip kompleksinin tədqiq olunduğunu və eyni zamanda tənqidlərə tuş gəldiyinin şahidi oluruq. Hətta bəzi tədqiqat işlərində psixoanaliz nəzəriyyəsi ilə müxtəlif sahələrə aid olan mövzular sintez olunaraq təhlil edilmişdir. Həmin əsərlərə nümunə olaraq, Kənan Sevinçin "Freudyen Psikolojide Bilinçaltı ve Bilinçdışı Kavramları Arasındaki Benzerlikler ve Farklılıklar" [Kilitbahir, 2019, sayı 15, s.125-158], Mustafa Koçun "Din Psikolojisi Açısından Psikanaliz ve Din Bağlamında S. Freud`un "Totem ve Tabu" Adlı Eseri Üzerine Bazı tespitler" [Marife: Dini Araştırmalar Dergisi (Bilimsel Birikim), 2002, 1(3): 67-83], A.N.Gökgülün "Nöropazarlama Yaklaşımlarını Sıgmund Freud'un Yapısal Zihin Modeli Çerçevesinde Değerlendirmek" [Elektronik Sosyal Bilimler Dergisi, 2022, cilt 21, №82, 771-783] Lothar Schattenburg-un "Sigmund Freud und die Psychoanalyse heute", [Stimmen der zeit, 2006, heft-12, Dezember, band 224], Sebastian Murken-in "Psychoanalyse und ihre Implikationen für die seelsorgerische Praxis- eine Erwiderung aus religionspsychologischer Perspektive" [Pastoralpsychologie und Religionspsychologie im Dialog, W.Kohlhammer, 2011, seite 59-66], Visentini Guenael-in "La psychanalyse: une science" [Le Coq-héron, 2015, page 15-24], D.T.Kenninin "Freud, Sigmund" [The University of Sydney, Sydney, NSW, Australia, 2019, p.1-8] adlı məqalələri göstərmək olar. Buna baxmayaraq, Azərbaycanda bu mövzuda kifayət qədər tədqiqatın olduğunu deyə bilmərik. Çünki ölkəmizdə nə psixoanaliz nəzəriyyəsi, nə də bu nəzəriyyənin tarixi arxaplanına dair dərinməzmunlu tədqiqat əsərlərinin sayı kifayət qədər deyil. Belə bir vəziyyət Psixoanaliz nəzəriyyəsinə dair aparılan tədqiqatların aktuallığını ortaya qoyur. Bu baxımdan Freydin Psixoanaliz nəzəriyyəsinin əsas mahiyyət, hədəf və xüsusiyyətlərinin, o cümlədən bu nəzəriyyəni psixologiya sahəsində mövcud olan digər məktəblərdən fərqləndirən əsas cəhətlərinin tədqiq edilməsi böyük əhəmiyyət kəsb edir. Bu

mənada, tədqiqatımızın məqsədi deskriptiv metoddan istifadə edərək Freydin Psixoanaliz nəzəriyyəsinin terminoloji bazasını, bu nəzəriyyənin təşəkkül prosesini və əhəmiyyətini ortaya qoymaqdır.

Gəldiyimiz nəticə ondan ibarətdir ki, Z.Freydin uşaqlıq dövründə yaşadığı hadisə və təcrübələrin onun psixoloji dünyagörüşü üzərində böyük təsiri olduğuna dair iddialar tamamilə doğrudur. Onun şəxsi təcrübə və əlavələri dedikdə özünün uşaqlıq dövründə yaşadığı hadisələr, daha sonrakı illərdə şəxsi yuxularının və keçmişdə baş verən hadisələrin analizi nəzərdə tutulur. Başqa sözlə desək, o, Psixoanaliz nəzəriyyəsini ərsəyə gətirərkən şəxsi təcrübə və əlavələrindən, eləcə də pasiyentlərin müalicəsində istifadə etdiyi metodlar vasitəsi ilə əldə etdiyi nəticələrdən yararlanmşdır. Məlum olduğu kimi, Psixoanaliz nəzəriyyəsinin özünəməxsus baxış tərzi və işləmə mexanizmi vardır. Bunu həm topoqrafik şəxsiyyət nəzəriyyəsi, həm də şəxsiyyətin struktur nəzəriyyəsi modelində görmək mümkündür. Növbəti müddəamız da məhz bununla bağlıdır və ikinci hipotezisimiz onu ifadə edir ki, Z.Freyd banisi olduğu nəzəriyyənin strukturunu qurarkən eyni zamanda, tarixi və bir çox başqa sahələrə aid olan məlumatları təhlil edərkən məhz psixoanalizə məxsus üsul və metodlardan istifadə etməyə üstünlük vermişdir. Buna baxmayaraq, Freydin yaradıcılığında dövrünün tanınmış tədiqatçılarının təsirini də nəzərə almaq lazımdır.

Məqaləmizdə əsas olaraq aşağıdakı suallara cavab axtarılır:

1. Z.Freydin həyatının xüsusilə, uşaqlıq illərinin onun elmi fəaliyyətinə ələlxüsus qurucusu olduğu Psixoanaliz nəzəriyyəsinə nə dərəcədə təsiri olmuşdur?
2. Onun qələmə aldığı təməl əsər və məqalələr hansılardır və Freyd həmin əsərlərdə əsasən hansı psixoloji problemləri müzakirə obyektinə çevirir?
3. Z.Freydin Psixologiya sahəsindəki mövqeyi nədən ibarətdir?
4. Psixoanaliz sistemini təşkil edən təməl anlayışlar hansılardır?
5. Topoqrafik şəxsiyyət nəzəriyyəsinin mahiyyət və əhəmiyyəti nədən ibarətdir?
6. Şəxsiyyətin struktur nəzəriyyəsinin Psixoanaliz konsepsiyasındakı yeri necə analiz edilə bilər?

Məqaləmizin məzmunu ilə tanış olduqdan sonra aydın olacaqdır ki, psixologiya sahəsi baxımından böyük əhəmiyyətə malik olan Ziqmund Freyd yaradıcılığı digər psixoanalistlərin nəzəriyyələrini öyrənmək istiqamətində bizə kömək olur. Bir daha qeyd edə bilərik ki, psixologiya sahəsində xüsusi yeri olan Psixoanaliz nəzəriyyəsinin hələ də öz aktuallığını qoruyub saxlaması baxımından daha çox araşdırılmağa və öyrənilməyə ehtiyacı vardır. Ümid edirik ki, bu tədqiqat əsəri yaxın gələcəkdə ölkəmizdə də psixoanaliz nəzəriyyəsinin fərqli aspektlərdən tədqiq edilməsinə stimul olacaqdır.

## 2.Ziqmund Freyd və Psixologiya elmindəki yeri

Psixoanaliz nəzəriyyəsi qurucusu olduğu Ziqmund Freydin həyatı ilə birbaşa əlaqəlidir. Nəzəriyyəsinin böyük bir qismi həyatının erkən dövürlərindən etibarən yaşadığı və ya dolayısıyla şahidi olduğu hadisələrin və travmaların təsirilə formalaşmışdır desək yanılmarıq. Bu səbəblə də, psixoanalizi lazımınca anlayıb tədqiq edə bilməyimiz üçün Freydin həyatına nəzər salmağımız müvafiq olar.

### 2.1.İntellektual bioqrafiyası və Psixoanaliz nəzəriyyəsinin təşəkkülünə olan təsirlərinin təhlili

1856-cı il 6 may tarixində Vyana yaxınlığında yerləşən Freiberq qəsəbəsində dünyaya gələn Ziqmund Freyd səkkiz uşaqlı ailənin ilk övladı olmuşdur. Atası tacir anası isə evdar qadın idi. Anasının ilk övladı olması səbəbilə onun sevgisini evin digər uşaqlarına nisbətən həmişə artıqlaması ilə hiss edən Freyd bu sevgi və dəstək sayəsində özünə güvənən, çalışqan, bacarıqlı və həmişə qazanmaq arzusuyla dolu olan bir uşaq olmuşdur. Məktəb illəri ərzində sinif birincisi olan Freyd dərslərinə qarşı məsuliyyətlə yanaşmış və məktəbi birinciliklə bitirməyə müvəffəq olmuşdur. Oxumağa qarşı olan hədsiz həvəsi və marağı sayəsində dövrünün tanınmış əsərlərinə bələd olan Freyd ali təhsil sahəsi olaraq tibbi seçir. Tibb sahəsini seçməsində yaşadığı dövrdə Vyanalı bir yəhudi üçün mümkün olan digər sahələrə (sənaye, ticarət və hüquq) qarşı marağının olmamasının və dövrünün qızıl çağını yaşayan təkamül nəzəriyyəsinin təsiri böyük olmuşdur. Məhz Ç.R.Darvinin nəzəriyyəsinə qarşı olan marağının nəticəsi idi ki, Freyd insanın fizologiyasını, təbiətdəki yerini və s. araşdırmaq və bunları tədqiq etmək istəyirdi. Başqa sözlə desək, o, bu yolla əsas hədəfi olan insan davranışlarının mənbəyini, onun psixologiyasını və bugünkü vəziyyətə gələnədək hansı mərhələlərdən keçdiyini öyrənmək arzusunda idi.

Məlum olduğu kimi, Z.Freyd insan həyatının sonrakı illərinin və şəxsiyyətinin formalaşmasında uşaqlıq dövründə yaşadığı travmaların böyük rolu olduğunu xüsusilə vurğulamışdır. Təbii ki, o, öz şəxsi həyatının təhlilinə istinadən bu nəticəni irəli sürmüşdür. Bu baxımdan biz də məqaləmizdə Z.Freydin sonrakı fəaliyyətinə təsiri baxımından bir neçə nüansı qeyd edə bilərik. O, uşaqlıq illərini təşkil edən travmatik hadisələri konkret olaraq müəyyən etməsə də həmin hadislərin onun sonrakı həyat və yaradıcılığına birbaşa təsir etdiyini açıq şəkildə görmək mümkündür. Freyd iki yaşında olarkən ikinci övladına hamilə olan anası vərəm xəstəliyi səbəbilə 20 yaşında vəfat edən qardaşı Yuliusun matəmini saxlayırdı. Hətta anası yeni dünyaya gətirdiyi övladına qardaşının şərəfinə Yulius adını verdi. Lakin həmin uşaq da xəstəlik ucbatında körpə ikən dünyasını dəyişdi. Təxminən eyni vaxtda Freyd dayəsini itirdi, atası işində çətinliklərlə üzləşdi və onların ailəsi Freiberqdən

Vyanaya köçməyə məcbur oldu. Əslində bu xoşagəlməz hadisələr sayəsində Freyd öz yuxularının təhlilinin də daxil olduğu özünü-təhlil (self-analysis) vasitəsilə Edip kompleksi adlandırdığı nəzəriyyəsinin əsaslarını müəyyənləşdirməyə başladımışdı. [Kenny 2019, 1]. Ümumiyyətlə, o, öz xatirələrində uşaqlıq illərinin çətin keçdiyini qeyd etmişdir. Həmin çətinliklərin mənbəyinin din olduğunu vurğulayan Freyd ilk zərbəni 4 yaşında olarkən ailəsilə birlikdə Leipziqə oradan da əhalisinin 90%-ni xristianların təşkil etdiyi Vyana şəhərinə köçdüyü zaman alır. Vyanada yaşadıqları dövrdə yəhudi ənənələrini davam etdirməkdən imtina edən atası Yakob Freyd bu dini əxlaqi aspektlər istisna olmaqla tamamilə tərk edir. Beləliklə, Freyd ictimai mühit baxımından xristian dininə sahib olan, lakin dini baxımdan möhkəm dayaqlara malik olmayan bir ailədə böyüyür [Köse 2016, 17]. Buna baxmayaraq, o etnik baxımdan yəhudi dininə mənsubluğunu heç vaxt unutmur və özünü “Tanrısız yəhudi” adlandırır [Köse 2016, 15]. Xatirələrində qeyd etdiyinə görə, o, ailəsi ilə birlikdə Freiberqdən Leipziqə gedərkən qatardan istifadə etmişdir. Bu səfərdən sonra Freyddə meydana gələn qatar fobiyası da məhz bu hadisə ilə əlaqəli olmuşdur. Çünki qatar kiçik Freydin nəzərində evi tərk etməyin, yaşadığı yerdən uzaqlaşmağın və ayrılığın simvoluna çevrilmişdir. Bu hadisə zamanı yaşadığı ikinci bir travma isə aclıq fobiyasının formalaşmasına gətirib çıxarmışdır. O, bu səfər ərzində dəfələrlə ac qalmaq təhlükəsilə üzləşmiş və bu qorxu səbəbi ilə nə zaman yemək tapsa mümkün qədər çox yeməyə və ac qalmaqdan qorxaraq sanki yemək ehtiyatı toplamağa çalışmışdır [Köse 2016, 19].

Qeyd etdiyimiz kimi, Z.Freydin dinə qarşı olan mənfi münasibətinin əsas səbəbi uşaq ikən yaşadığı hadisələrin olması təsadüfi hesab olunmamalıdır. Onun din, xüsusilə də Xristianlıq dini ilə olan əlaqəsi çexoslavakiyalı katolik dayəsi sayəsində olmuşdur. Yaşlı qadın kiçik yaşlı Freyd ilə çex dilində danışır, onu tez-tez kilsəyə aparır və dini ayinləri izah edirdi. Dayəsini çox sevən Freyd cənnət və cəhənnəm haqqında danışılan moizələrə diqqət və böyük maraqla qulaq asırdı. Beləliklə, o, etnik dini olan yəhudilikdən tədricən uzaqlaşaraq ikinci sığınacaq olaraq xristianlığa meyil edirdi. Təəssüf ki, yaşadığı travmatik hadisə onun xristianlıqdan da soyumasına, hətta nifrət etməsinə gətirib çıxarmışdır. Belə ki, Freyd tərəfindən xristianlığın ideal nümunəsi olaraq seçilən dayə oğurluq etdiyi üçün işdən qovulur. Nəticədə, Freydin nəzərində dinə, xüsusilə onun praktiki yönünə qarşı inamsızlıq baş qaldırır [Köse 2016, 17].

Z.Freydin gələcəkdəki fəaliyyətinə təsir edəcək digər bir nüans isə anasının ona “Torpaqdan gəldik torpağa gedəcəyik” şəklindəki fikri təlqin etməsidir. Kiçik yaşlı Freydə ölüm haqqında deyilmiş bu cümlə uşaqlıqdan etibarən bütün həyatı boyunca əziyət çəkdiyi ölüm fobiyasının yaranmasına səbəbiyyət

vermişdir. O bu qorxunun öhdəsindən instinkt nəzəriyyəsinin bir parçası olan "ölüm instinkti" (death instinct-thanatos) vasitəsilə gəlmişdir [Köse 2016, 19]. Bu nəzəriyyəyə əsasən, ölüm digər instinktlər kimi insana xasdır və vücudun fizioloji bir vəziyyətidir. Dağıdıcı funksiyaya sahib olan ölüm instinkti mazoxizm və intihar hallarında olduğu kimi "daxili" və ya nifrət duyğusunda olduğu kimi "xarici" bir qüvvədir. Freydin fikrinə görə, həyatın məqsədi ölümdür və hamı ona doğru gedir [Həsənova 2018, 49]. Eyni zamanda, Freydin nəzəriyyələri arasında xüsusi yeri olan Edip kompleksi də uşaq vaxtı yaşadığı təcrübələrin məhsulu olmuşdur. Belə ki, onun atasına qarşı bəslədiyi ikili hiss (həm qorxu, həm də sevgi), anasının atasından yaşca xeyli gənc və xarici görünüşcə cazibədar olması, eyni zamanda, Freydin anasına qarşı olan sevgi və bağlılığı bu nəzəriyyənin mənbəyi hesab oluna bilər.

Onun dünyagörüşünün formalaşmasında ailə həyatı qurduqdan sonra yaşadığı maddi çətinliklər və bu səbəblə keçirdiyi ağır hisslər də böyük rol oynamışdır. Belə ki, şəxsi həyatına da davam edən Freyd 1882-ci ildə nişanlandığı Martha Bernays ilə 1886-cı ildə ailə həyatı qurmuşdur. Evlilik həyatının ilk illərində yaşadığı maddi problemlər sonradan həll olunsa da o,bu çətinlikləri heç vaxt unutmamışdır. Ziqmund Freyd 1939-cu il sentyabr ayının 23-də Londonda vəfat etmişdir.

**2.2.Əsərləri və onlara dair ümumi təhlil**

Z.Freyd tədqiqat və müşahidələr apardığı psixoanaliz sahəsində bir sıra əsərlər qələmə almışdır. Onun müəllifi olduğu əsərləri aşağıdakı kimi sıralaya bilərik: "Yuxuların Yozumu" (The Interpretation of Dreams- 1880), "Gündəlik həyatın psixopatologiyası" (The Psychopathology of Everyday Life- 1904), "Cinsiyyət haqqında üç esse" (Three Essays on Sexuality- 1905), "Totem və tabu" (Totem and Taboo- 1913), "Həzz prinsipinin fövqündə" (Beyond the Pleasure Principle- 1920), Bir illuziyanın gələcəyi" (The Future of an Illusion- 1927), "Mədəniyyət və narahatlıqları" (Civilization and Its Discontents- 1930), "Musa və Təktanrıçılıq" (Moses and Monotheism- 1938) [Ayten 2015, 43-44]. Z.Freyd "Yuxuların yozumu" adlı kitabında pasiyentlərinin və özünün gördüyü yuxuları psixoanaliz vasitəsilə izah etməyə çalışmışdır. O, burada yuxu və yuxugörmə ilə bağlı olan bir çox mövzulara toxunmuşdur. Z.Freyd kitabın "Yuxugörmə proseslərinin psixologiyası" adlı VII fəslində gördüyümüz yuxuların əslində arzularımızın gerçəkləşdiyi bir dünya olduğunu iddia edir. O, yuxunu eyni zamanda, yaşadığımız hadisələrin və keçirdiyimiz narahatlıqların nəticəsi olaraq ifadə edir. Freyd bunu özünün gördüyü yuxusunu misal gətirərək təsdiqləməyə çalışır. O, deyirdi: "Araşdırdığımız yuxugörmə örnəklərindən biri- həmkarım Ottonu (Otto Rank) bazedov xəstəliyinin əlamətlərilə gördüyüm yuxunu götürək. Bir gün əvvəl Ottonun sağlamlığı ilə bağlı olan düşüncələr məni daim narahat edirdi; bu narahatlıq

yaxın adamla bağlı hər şey kimi məni darıxdırırdı. Mənə elə gəlir ki, bu narahatlıq yuxuda da məndən əl çəkməyib. Çox güman ki, mən ona nə olduğunu bilmək istəmişəm. Gecə bu qayğı öz ifadəsini məzmunu, birinci növbədə, mənasız olan və heç bir arzu gerçəkləşməsini əks etdirməyən yuxugörmədə tapıb. Lakin mən gündüz qayğısının bu qədər qəribə ifadəsinin haradan qaynaqlandığını öyrənməyə girişdim; analiz mənə axtarılan rabitəni göstərdi..." [Freud 2012/4, 297; Freyd 2014, 485]. Bəs görəsən yuxunun hər hansı bir funksiyası və ya faydalı bir rolu varmı? Bu suala psixoloq belə cavab verir: "Yuxunun təmin etməyə çalışdığı müqavimət göstərmək istəyi bir-birindən fərqli üç istiqamətdən təhdid altındadır. Bunlardan birincisi, təsadüfi olaraq ətrafdan gələn siqnallar, ikincisi yox edilməsi qeyri-mümkün olan gündəlik fəaliyyətlər və sonuncusu istər-istəməz ortaya çıxmaq üçün fürsət axtaran təmin olunmamış və təzyiq altında tutulmuş impulslardır. Yuxugörmə zamanı təzyiq altında tutma funksiyasının azalması səbəbi ilə yuxudakı səssizliyi pozan xarici və daxili siqnalları ilə şüursuz şəkildə təhrik edən mənbələrdən birinin ortaq məxrəcdə görüşməsi təhlükəli hesab oluna bilər" [Freud 2012/2, 19].

Ziqmund Freydin 1907-ci ildə qələmə aldığı "Obsessiv davranışlar və dini rituallar" ("Obsessive Actions and Religion Practices") adlı məqaləsi vardır ki, ilk dəfə məhz burada din haqqında olan fikirlərini qeyd etmişdir. Gəlin onun bu yazısında dinə necə yanaşdığına və onu necə izah etdiyinə baxaq. Z.Freyd ilk növbədə obsesif davranışlar ilə dini rituallar arasında əlaqə olduğunu bildirir. O, nevrotik insanların obsesif davranışları ilə dini ibadətlər arasındakı oxşarlıqları belə sıralayır: 1) həm obsesif, həm də dini rituallar vicdan əzabının və narahatlığın meydana gəlməsinə səbəb olur; 2) hər ikisinin insan zehnində xüsusi yeri vardır və onların yerinə yetirilməsi ilə məşğul olarkən insan ətraf aləmdən və digər işlərindən təcrid olunur və bu səbəblə də 3) hər iki davranışın yerinə yetirilməsinə xüsusi diqqət ayrılır; 4) hər iki fenomenin təməlində günahkarlıq duyğusu vardır ki, fərd bu duyğunun israrı ilə obsesif davranışları və dini ritualları yerinə yetirir. Lakin bu duyğu, əslində, keçmişdə baş vermiş hər hansı bir hadisənin forma dəyişdirmiş halıdır; 5) həm obsesif davranışlar, həm də dini ayınlər yerinə yetirilmədiyi an meydana çıxan günahkarlıq duyğusu səbəbilə peşmanlıq hissi meydana çıxır; 6) hər iki davranışda instinktiv impulslar təzyiq altında tutulur; 7) Freyd digər bir oxşarlığı "uzlaşma" adlandırır. O, bənzərliyi belə izah edir: obsesif davranışlar motivlərin tələb etdiyi həzzin qarşısını alaraq onun yerinə özləri bilavasitə müəyyən bir həzz obyektinə çevrilir. Digər bir ifadə ilə desək, obsesif nevrozlar zehinlərində bir-birilə mübarizə aparan qüvvələr arasında uzlaşmanı təmin edir və beləliklə də, həqiqi motivlərin tələb etdiyi həzz simvolik olaraq bu yolla təmin olunur. Nəhayət sonuncu oxşarlığı 8) "yer dəyişdirmə" adlanır.

Bu oxşarlığa əsasən, obsesif davranışlarda əhəmiyyətli olan davranışın yerinə əhəmiyyətsiz olan davranış keçir. Nəticədə, əhəmiyyətsiz və heç bir məna ifadə etməyən bir şey böyük və əhəmiyyət kəsb edən bir obyektə çevrilir. Z.Freyd qeyd olunan bu səkkiz xüsusiyyətin ilk üçünü əsas və daha əhəmiyyətli bənzərlik olduğunu bildirmişdir [Köse 2016, 69]. O, hər birini psixoanaliz pəncərəsindən izah edərək zaman-zaman öz pasiyentlərindən misallar göstərmiş və irəli sürdüyü fikirlərin doğruluğunu əsaslandırmağa çalışmışdır. Əlbəttə ki, bütün bu nüanslar istər dindarlar, istər Freydin tələbələri, istərsə də digər tədqiqatçılar tərəfindən tədqiq və tənqid obyektinə çevrilmişdir. Tənqidlərin ortaq cəhəti isə bundan ibarətdir ki, Freyd dini nüanslara reduksionist bir baxış bucağından yanaşmış və irəli sürdüyü fikirləri lazımınca əsaslandıra bilməmişdir.

Din haqqında yazmış olduğu əsər və məqalələr içərisində 1912-cu ildə yazdığı “Totem və tabu” (“Totem and Taboo”) adlı əsəri xüsusilə qeyd olunmalıdır. Belə ki, “Totem və tabu” əsərini ümumi bir şəkildə ələ alsaq, onun bu əsərdə antropologiya sahəsindən əldə etdiyi məlumatları psixoanaliz vasitəsilə izah etməyə çalışdığının şahidi olarıq. O, “Totem və tabu”-nu “Obsessiv davranışlar və dini rituallar” adlı məqaləsində irəli sürdüyü fikirləri dəstəkləmək məqsədilə qələmə almışdır. Belə ki, Freyd həmin məqalədə qeyd etdiyi nüansları inkişaf etdirərək yenidən işləmiş və “Totem və tabu” əsərini ərsəyə gətirmişdir. Onun “Totem və tabu”-dakı nəzəriyyələri etnoloqların ciddi tənqidinə məruz qalmışdır. Məhz bu tənqidlər səbəbi ilə Freydin qeyd etdiyi fikirlərdən imtina etməsi ehtimal olunurdu. Lakin o, fikirlərindən imtina etmədi əksinə, etnoloqların onun nəzəriyyələrini çürüdə bilmədiklərini, özünün isə bir psixoanalitik kimi etnoloji mahiyyətdəki məlumatları analiz (təhlil) etmək imtiyazına malik olduğunu vurğuladı [Köse 2016, 84]. Z.Freydin “Totem və tabu” əsərində qeyd etdiyi fikrə əsasən, ibtidai qəbilə dinləri ilə Xristianlıq arasında paralel bir əlaqə vardır. O, dinin mənbəyini ibtidai dinlərdə mövcud olan “totem” məfhumu ilə əlaqələndirir.

Bu əlaqədə onun məhz xristianlığı hədəf göstərməsi isə təsadüfi deyildir. Məqalənin ilk fəslində qeyd etdiyimiz bir neçə nüans Freydin dinə qarşı olan antipatiyasının uşaqlıq dövründə yaşadığı hadisələrlə əlaqədar olduğunu ortaya qoyur. Belə ki, sosioloji və etnik baxımdan yəhudi olmalarına baxmayaraq, ətrafında daha çox xrsitian dininə mənsub olan insanların yaşaması və üstəlik buna görə doğulduğu yerdən köçməyə məcbur olması Z.Freyddə xristianlığa qarşı antipatiya hissinin yaranmasına səbəb olmuşdur. Buna görə də, onun radikal bir yəhudiyə çevrilməsi heç də təsadüfi hesab olunmamalıdır.

Totem məfhumunun mənşəyinə gəldikdə isə Freyd bunu avstraliyada yaşayan ibtidai qəbilələrdə mövcud olan totemizm anlayışı çərçivəsində izah

edir. Belə ki, totemizm həmin qəbilələrdə mövcud olan bütün növ dini və ictimai qurumları özündə ehtiva edən, hətta onların yerinə keçən bir sistemdir. Z.Freydin fikrinə görə, totemə mənsubluq ya ana, ya da ata tərəfindən ötürülür və beləcə gələcək nəsillərə çatdırılır. O, bu prosesi qəbilələrdə mövcud olan qəbilə və ya qan bağlılığının da fövqündə duran psixoloji bir inanc olaraq ifadə edir [Koç 2002, 69-70]. Freyd “Totem və tabu” adlı əsərində bu mövzu barəsində yazır: “Avstraliyalılar arasında totemizm bütün dini və ictimai sistemlərin yerini almaqdadır. Onlar bir neçə qəbiləyə ayrılmışlar ki, hər bir qəbilə də öz toteminin adını daşıyır. Bəs totem nədir? Yeyiləbilən, təhlükəli, qorxunc və ya zərərsiz bir heyvan yaxud nadir tapılan bir bitki eyni zamanda su, torpaq və ildırım, yağış kimi təbiətə xas bir məfhumdur. Totemin bütün qəbilə üzvləri ilə xüsusi bir əlaqəsi vardır. Hər şeydən əvvəl, o, qəbilənin atasıdır. Eyni zamanda, qəbilənin qoruyucu ruhu və nəzarətçisi funksiyasını daşıyan totem çətin vaxtlarda qəbilə nümayəndələrinə yol göstərir, onların özlərini və övladlarını qoruyur. Bu səbəblə də, totemi öldürmək, bu və ya digər yolla ona zərər yetirmək böyük günah hesab olunur. Bu kimi xüsusiyyətlər müəyyən bir totemə xas olmayıb, həmin totemin cinsindən olan bütün növ varlıqlara aid hesab edilir. Qəbilə üzvləri tərəfindən müəyyən vaxtlarda ziyafətlər təşkil olunur və onlar rəqslər vasitəsilə totemin hərəkət və xüsusiyyətləri təqlid edərək ona olan ehtiramlarını bildirir [Freud 2012/1, 8-9].

Ziqmund Freydin 1927-ci ildə yazdığı “Bir illuziyanın gələcəyi” (The Future of an Illusion) adlı əsərində dinin gələcəyindən bəhs edir. O, burada bildirdiyi və iddia etdiyi fikirlər səbəbi ilə sərt tənqidlərə məruz qalacağını ehtimal edərək bu barədəki fikirlərini belə qeyd edir: “Bu yazımdan ziyan çəkə biləcək tək bir insan varsa, o da elə özüməm. Bu əsərimi üzə çıxarandan sonra məni, biliyimin səthiliyi və məhdudluğundan, habelə, insanlığın yüksək maraqlarını anlamamaqda və yaxşılıqsevərlik daşıyıcısı olan idealizmdən uzaqlaşmaqda qınayacaqlar, özü də bunu ən kobud formalarda mənim üzümə vuracaqlar” [Freud 2012/3, 39-40; Freyd 2015, 52-53]. Bəs Freyd nəyi “illuziya” adlandırmışdır? O “illuziya” deyərək insanın daxili və xarici qüvvələr qarşısında baş qaldıran acizlik hissini nəzərdə tutmuşdur. Hansı ki, bu hissin meydana gəlməsi ilə insan uşaqlıq illərinə qayıdır və həmin dövrdəki təcrübə və xatirələri sanki yenidən yaşayır. Elə bu səbəblə də, o, dini uşaqlıq təcrübələrinin təkrarı, digər ifadə ilə desək, şəkil dəyişmiş forması olaraq qəbul edir. Məlumdur ki, bütün növ təhlükələrdən qorxan uşaq özündən daha böyük bir cismə, əksər hallarda isə atasına sığınır. Lakin uşaq böyüdükdən sonra bu funksiyanı din öz üzərinə götürür. Beləliklə də, Freyd dini uşaqlarda müşahidə olunan nevroz ilə müqayisə edir. Onun fikrinə görə, din uşaqlıq dövründən etibarən nevroza səbəb olan və oxşar vəziyyətlərdən əmələ gələn ictimai bir nevrozdur [Fromm 2017, 22; Fromm 2018 22].

Tanrı inancına gəldikdə isə Freyd onun iki mənbədən qaynaqlandığını iddia edir. Bunlardan birincisi, insanın təbiət hadisələri qarşısında təkbaşına mübarizə apara bilməyəcəyini dərk etməsidir. Onun fikrinə görə, insan bu səbəblə tanrı inancını meydana gətirmiş, nəticədə cəmiyyət əsrlər boyu bu inancı qoruyub saxlamış və ona sığınmışdır. İkinci səbəb isə instinktlərin ruhi həyata təsiri nəticəsində insanın hiss etdiyi acizlik hissidir. Hər iki halda Freyd dinin və tanrı inancının meydana gəlməsinin səbəbini məhz qorxu və acizlik hissi ilə əlaqələndirmişdir [Qənbərov, Həsənov 2019, 129-130]. O, bu əsərdə sanki rəqibi tərəfindən ona verilən sual və tənqidləri cavablandırmışdır. Həmin xəyali rəqibin isveçrəli psixoloq Oskar Pfitser olduğu təxmin edilir [Köse 2016, 120]. Freydin fikirlərinə istinadən son olaraq qeyd edə bilərik ki, dinin gələcəyi yoxdur və zaman keçdikcə elm inkişaf edəcək, nəticədə din tədricən öz funksiyasını itirərək yox olacaqdır.

Ziqmund Freyd "Musa və təktanrıçılıq" ("Moses and Monotheism") əsərini 1939-cu ildə qələmə almışdır. O, burada dinin mənşəyi haqqındakı fikirlərini daha da irəli səviyyəyə götürmüşdür. Belə ki, Freyd təkranrılı dinin mənbəyini şəxsi fikirləri və psixoanalitik nəzəriyyələri çərçivəsində müəyyən etməyə çalışmışdır. O, ilk təktanrılı dinin qədim Misirdə mövcud olan Aton dinindən meydana gəldiyini iddia edir. Bu mənada "Musa və təktanrıçılıq" əsərində irəli sürdüyü beş əsas tezis diqqətəlayiqdir:

1) Musa yəhudi deyil, misirlidir;

2) Musanın yəhudilərə təbliğ etdiyi din misir fironu VI Amenophisin təktanrılı Aton dinidir;

3) Sünnət adəti Misirə Musa tərəfindən gətirilmiş və yəhudilərə təqdim olunmuşdur;

4) Misirli Musa yəhudilər tərəfindən öldürülmüş, lakin sonra mədyənli Musa meydana çıxmışdır. Freydin fikrinə görə, Musa dualizmi buradan qaynaqlanmışdır. Bundan əlavə, o, Musanın tarixi yox, əfsanəvi bir şəxsiyyət olduğunu da iddia etmişdir. Çünki insanlar tarix boyu qarşılaşdıqları çətinliklər qarşısındakı acizlik və qorxu hissi səbəbi ilə belə qəhrəman obraz və təsəvvürlər formalaşdırmış və onlara sığınmışlar;

5) İbtidai qəbilə dövründə baş verən hadisə Musanın öldürülməsi ilə yenidən təkrarlanmış, lakin baş qaldıran peşmanlıq hissi səbəbi ilə İsa peyğəmbər yenidən dirilən Musa və ibtidai qəbilədəki ilkin atanın yerinə keçmişdir [Köse 2016, 139].

Ziqmund Freydin qələmə aldığı əsərləri təhlil edərkən onun ortaya qoyduğu fikir və iddiaların əsasında psixoloqun yaşadığı şəxsi təcrübə və hadisələrin yatdığını görərik. Hər hansı bir irad və ya tənqid ilə qarşılaşdığı təqdirdə o, dərhal analist olaraq tədqiq etdiyi məsələni, hətta tarixi fakt olsa belə azad şəkildə analiz etmək hüququnun olduğunu vurğulayır. Freydin əsərlərində

qeyd etdiyi nüansların əksəriyyətinin, xüsusilə din haqqındakı fikirlərinin şəxsi məlumatların işığında formalaşdığını daha əvvəldə də qeyd etmişik. Məsələni ümumi şəkildə təhlil etdikdə onun təhtəlşüur anlayışı və şəxsiyyətin struktur nəzəriyyəsinin əsaslarını təşkil edən id, eqo və super-eqo məfhumlarının mühüm psixoanalitik anlayış və yanaşmaların təşəkkül və inkişafına ciddi töhvələr verdiyini demək olar. Bu töhvələrin mahiyyəti ilə əlaqədar müzakirələrə məqalənin sonrakı alt fəslində yer verilmişdir.

## 2.3.Ziqmund Freydin Psixologiya elmindəki yeri

Ziqmund Freydin Psixoanaliz nəzəriyyəsini qurmasına əhəmiyyətli dərəcədə təsir göstərən hadisə məhz İosif Breyer (Joseph Breuer) ilə birlikdə apardığı araşdırmalar olmuşdur. O, 1889-cu ildə Vyanaya qayıtdıqdan sonra uzun bir müddət İosif Breyer ilə çalışmağa başladı. Bu araşdırmalar içərisində “Anna O” şərti adı ilə tanınan və isteriya xəstəliyindən əziyət çəkən pasiyenti xüsusilə qeyd etmək lazımdır. Breyer əkəsiyyətinin qadınlardan ibarət olan pasiyentlərin müalicəsində əsasən hipnoz metodundan istifadə edirdi. Hipnoz altında olan pasiyentlər yaşadıqları hadisələri rahat bir şəkildə danışır, adi halda deyə bilmədikləri nüansları hipnoz altında rahatlıqla dilə gətirirdilər. Nəticədə ayıldıqları zaman böyük bir rahatlıq və aramlıq hissi duyurdular. Duyğuların rahatlıqla xaricə ötürüldüyü bu hadisə təmizlənmə mənasına gələn “katarsis” adlanırdı. Beləliklə, nevrotik xəstəlikərin yaranmasına səbəb olan hadisələr üzə çıxır, yaşadığı hadisə ilə xəstəlik arasında olan və pasiyentin özünün belə fərqində olmadığı əlaqə məhz hipnoz metodu vasitəsilə aşkar olunurdu [Geçtan 1998, 16].

Z.Freyd İ.Breyer ilə işlədiyi dövr ərzində üzərində birgə çalışdıqları iki əsər işıq üzü gördü. Bunlardan birincisi, 1893-cü ildə çap olunan “İlkin ünsiyyət” (“Ön İletişim”) adlı əsərdir. İkincici isə 1895-cil də nəşr olunan “İsteriya haqqında araşdırmalar” (“Histeri Üzerine İncelemeler”) adlanan əsər olmuşdur. Hər iki yazı isteriya simptomlarının sarsıdıcı hadisələr nəticəsində meydana gəlməsindən və bu simptomlar ilə həmin hadisələr arasında hər zaman müəyyən bir əlaqənin olmasından bəhs edir. Eyni zamanda, məqalədə travmatik nevroz ilə isteriya arasında oxşar cəhətlərin olduğu və hər iki vəziyətdə sarsıdıcı hadisələrə qarşı lazımi hissi reaksiyaların verilməməsi səbəbi ilə yaranan duyğuların təhtəlşüurda yerləşməsi qeyd olunur. Bundan başqa hər iki psixoloji hal arasında olan əlaqə məhz hipnoz metodu vasitəsilə aşkar edilir və bu aşkarlanma nəticəsində daha əvvəl pasiyentə əziyət verən simptomlar artıq mövcud olmur. Beləliklə də, təhtəlşüur məfhumu və bu məfhumun insan davranışları üzərindəki təsiri kəşf olunur. Məhz bu yolla təhtəlşüura xas olan güclərin insan davranışlarını istiqamətləndirməsi halını təsvir edən terminin – “psixodinamika”nın təməli qoyulmuşdur. Freyd ilə Breyerin əməkdaşlığı və birlikdə apardıqları araşdırmalar Freydin isteriyaların

yaranmasında cinsi aspektlərin roluna daha çox əhəmiyyət verməsi səbəbi ilə tamamilə bitir. Nəticədə, Freyd tədiqatlarını təkbaşına davam etmək məcburiyyətində qalır və hipnoz metodunun əvəzinə pasiyentlərin oyaq vəziyətdə yaşadıqlarını rahat şəkildə danışa biləcəkləri bir üsul formalaşdırır. "Sərbəst assosiasiya" adlanan bu metod əsnasında pasiyentlər hər hansı bir maneə olmadan yaşadıqları bütün növ hadisələri dilə gətirir, daxildə gizlədilmiş və unudulmuş xatirələri xatırlayaraq üzə çıxarırlar. Pasiyentlərin daxili dünyalarına enərək özlərini daha yaxşı tanımaları və sağlam bir uzlaşma səviyyəsinə nail ola bilmələri üçün şərait yaradan prinsiplər məhz "Psixanaliz" adlanır [Geçtan 1998, 18-19].

Z.Freyd bütün bu kəşflərini Vyanada mövcud olan elmi müzakirə qruplarına açıqladığı zaman həmkarları tərəfindən ciddi tənqidə məruz qalır. Bu tənqidlər elə bir həddə çatır ki, hətta onu məsxərəyə qoyaraq özlərindən uzaqlaşdırırlar. Cəmiyyət tərəfindən təcrid olunan Freyd araşdırmalarını təkbaşına davam etdirir və yalnız XIX əsrin əvvəllərində ətrafdan maraq görməyə başlayır. 1902-ci ildə az sayda həmkarının iştirakı ilə evində təşkil etdiyi müzakirə məclisləri bir müddət sonra Vyana Psixoanaliz Dərnəyinin qurulmasına zəmin yaradır. Bu dövrdə Freydin araşdırmaları artıq digər ölkələrdə də tanınmağa və rəğbət görməyə başlayır. Belə ki, psixoanalizi institusionallaşdırmaq və daha da böyüyəcəyi təqdirdə nəzarət altında saxlamaq məqsədilə Beynəlxalq Psixoanalitik Assosiasiya (Uluslararası Psikanaliz Birliği) qurulur. Freyd 1909-cu ildə Klark Universitetində çoxlu sayda konfransda iştirak etmək təklifini qəbul edərək Amerikaya səfər edir. O, qayıtdıqdan sonra pasiyentlərinin sayı artmağa başlayır və gününün on iki saatını onlara sərf edir. Apardığı araşdırmaların, oxuduğu kitabların və şahidi olduğu elmi yeniliklərin çox olmasına baxmayaraq Freydin düşüncələrinin və qurucusu olduğu nəzəriyyələrinin mənbəyini özünün şəxsi həyatı və klinik çalışmaları təşkil edir. Bütün bunlara baxmayaraq, həyatını psixoanaliz nəzəriyyəsini qurmağa və onu daha da inkişaf etdirməyə sərf edən Freyd müasir psixologiya elminin əsasını təşkil edən töhfələrin banisi hesab olunur. Bu töhfələr yalnız yeni terminlərin kəşf olunması və inkişaf etdirilməsi ilə məhdudlaşmır. O, eyni zamanda psixiatriya sahəsinə yeni və dinamik bir baxış bucağı da qazandırmışdır [Geçtan 1998, 20-22].

XIX əsrdə mövcud olan psixologiya elmi ilə birbaşa fəlsəfə arasında sıx əlaqənin olduğunu deyə bilərik. Beləki hər ikisinin tədqiq etdiyi mövzuların əsasını şüur anlayışı təşkil edir. İnsanın şüurlu şəkildə olan davranışlarını müşahidəsi mümkün olan məfhumlar və səbəb-nəticə əlaqəsi ilə izah edilməyə çalışılmışdır. Lakin belə bir vəziyət gözlə görünməsi mümkün olmayan səbəblərin araşdırılmasına mane olurdu. Bu məqamda Freyd təhtəlşüur anlayışını irəli sürmüşdür ki, bu da fərdin şüurlu görünən davranışlarının arxa

fonunda mövcud olan və tamamilə şüursuz xarakter daşıyan səbəblərin araşdırılmasına şərait yaratmışdır. İnsanın duyğu, hiss, düşüncə və istəklərini özündə ehtiva edən təhtəlşüur məfhumu mahiyyət etibarilə özündə şüurlu hesab olunan bir çox davranışların səbəbini gizlətmişdir. Başqa sözlə desək, təhtəlşüura xas olan istəklər müxtəlif təzahür formaları ilə şüurlu həyata öz təsirini göstərir [Gökgül 2022, 777].

Z.Freydi psixologiya sahəsindəki digər tədqiqatçılardan fərqləndirən əsas xüsusiyyət ondan ibarətdir ki o, insan davranışlarına səthi yanaşmamış və onların daha dərin çalarlarını təfsilatlı şəkildə analiz etmişdir. Bu baxımdan onun təhtəlşüurun davranışlarımıza olan əhəmiyyətli təsiri haqqındakı düşüncəsi psixologiya sahəsində bir ilk hesab olunur. Dövrümüzdə mövcud olan psixoloji düşüncə tərzimizi əsaslı şəkildə dəyişən faktor məhz onun psixoanaliz nəzəriyyəsinin çətiri altında topladığı fikirləridir. Uşaqların hissi ehtiyacları, yuxular və onların yozulması, cinsi mövzular və bütün bunların davranışlarımıza olan təsiri psixologiya sahəsinə yeni bir baxış bucağı qazandırmışdır. Onun inqilabi düşüncələri zaman-zaman sərt müzakirə və tənqidlərə məruz qalsa da bu gün psixoloji problemlərin həllində istifadə olunan müxtəlif müalicə üsullarının təməli məhz Ziqmund Freyd tərəfindən qoyulmuşdur desək yanılmarıq [Sowden 2016, xxvııı].

Z.Freyd özü də ortaya qoyduğu düşüncələrinin əhəmiyyətini vurğulayır və dünyada insanların həyatına böyük təsir etmiş kəşfləri belə sıralayır: Birincisi, N.Kopernikin Yer kürəsinin də digər planetlər kimi Günəş ətrafında dövr etməsini iddia etməsi, ikincisi, Z.Freyd ikinci böyük kəşfin Darvinin təkamül nəzəriyyəsi, nəhayət, cəmiyyət üçün sonuncu – üçüncü əhəmiyyətli kəşfin özünün təhtəlşüur anlayışı olduğunu iddia edir. O, davranışlarımızın rasional idarəcisi olmadığımızı bunun əksinə, fərqində olmadığımız təhtəlşüura xas güclər tərəfindən idarə olunduğumuzu vurğulayaraq psixologiya sahəsində bir şok təsiri yaratdığını deyir [Schultz D.P, Schultz S.E 2007, 566].

XX əsr sənət, ədəbiyyat və əyləncə mədəniyyətində olduğu kimi davranışlarda da cinsi məhdudiyyətlərin getdikcə aradan qalxdığı bir dövr hesab olunur. Freydin cinsi mövzulardakı nəzəriyyələrinin yanlış mənimsənilməsi səbəbilə bu dövrdə mədəniyyət cinsi ehtiyacın təzyiq altında tutulmasının və ya qadağan olunmasının zərərli olduğu qənaətinə gəlmişdir. Əslində isə Freyd cinsi davranışlara xas məhdudiyyətlərin aradan qaldırılmasının və ya azadlıq verilməsinin tərəfdarı deyildi və belə bir iddia da irəli sürməmişdir. Əksinə, o, bildirirdi ki, cinsi davranışların qarşısının alınması sivilizasiyanın yaşaması naminə vacib bir amildir.

Bəzi tədqiqatçılar tərəfindən metodoloji və elmə verdiyi bəhrə baxımından əskik hesab olunmasına baxmayaraq psixoanaliz müasir psixologiya sahəsində əhəmiyyətli yerə sahibdir. E.G.Boring 1929-cu ildə işıq üzü görən "Təcrübi

psixologiya tarixi" (History of Experimental Psychology) adlı jurnalda psixologiya dünyasının Q.L.Fredinand və ya Ç.R.Darvin kimi böyük şəxsiyyətlərinin olmamasından şikayətlənirdi. Lakin 1950-ci ildə çap olunan jurnalın ikinci sayında bu fikrini dəyişdirdiyini bildirərək bu sözləri yazdı: "Hal-hazırda Freyd orijinal düşüncə irəli sürənlərin ən böyüyü və təhtəlşüur məfhumu ilə psixologiya sahəsinə qarşı qaldırılmış bütün hücumların qarşısını alan Zeytgeytsdir". Adı çəkilən jurnalın başqa səhifəsində isə müəllif belə qeyd edir: "O, düşüncə sahəsində insan təbiətini anlamağa yönəlmiş bir metodun qurucusudur. O, fikirlərini mədəniyyətin təməl prinsiplərinin xaricindən seçmiş olsa da orijinal bir düşüncə tərzi formalaşdırmışdır. Gələcək üç yüz ildə Freydin adından bəhs edilmədən psixologiya tarixi yazılmayacaqdır. Bu nöqtədə böyüklüyün ən yaxşı meyarını görəcəksiniz: ölümdən sonra gələn şöhrət" [Schultz D.P, Schultz S.E 2007, 627-628].

Z.Freydin psixoloji baxımdan normal hesab olunan insanların davranışlarının müəyyən edilməsində təhtəlşüurun rolunun əhəmiyyətini vurğulaması sayəsində nəinki psixiatr və analistlər, hətta cəmiyyət tərəfindən də tanınmağa başlamış və məşhur birinə çevrilmişdir.

**2.4.Psixoanaliz məktəbinin mahiyyəti və əsas nəzəriyyələri**

Bütün davranış nəzəriyyələri elmi baxımdan etibarlı sayılmaması səbəbilə müəyyən bir dərəcəyə qədər tənqid edilir. Hər hansı bir nəzəriyyəni tədqiq edən psixoloq rəsmi elmi reallıqdan əlavə olaraq digər kriteriyalara istinadən qərar verməli olur. Psixoanalizi tənqid etməyi seçən psixoloqlar isə bu kriteriyaları dəstəkləyən sübutlar tapa bilmir. Çünki psixoanalizin təqdim etdiyi sübutlar elmin ənənəvi standartlarına uyğun gəlmir. Belə psixoanalitik sübutların elmilik tələbinə tabe olmaması həmin nəzəriyyələrin doğru olmaması və ya aldadıcı olması demək deyildir. Z.Freydin psixiatriya və klinik psixologiya sahələrinə olan təsiri danılmaz bir faktordur. Belə ki, onun nəzəriyyələri Amerikanın akademik psixologiya sahəsində əhəmiyyətli bir yerə sahibdir. Onun məşhur və hamı tərəfindən bilinən bir çox nəzəriyyəsi müasir psixoloqlar tərəfindən qəbul olunmuş və əhəmiyyətlə qarşılanmışdır. Həmin nəzəriyyələrə nümunə olaraq, insan davranışının formalaşmasında təhtəlşüur anlayışının rolu, uşaqlıq dövründə yaşanan hadisələrin əhəmiyyəti, müdafiə mexanizmlərinin fəaliyyəti kimi mövzuları qeyd edə bilərik. Adı çəkilən nəzəriyyələrə olan maraq tədqiqatçıların çoxlu sayda araşdırmalar aparmasına səbəb olmuşdur. Son illərdə akademik psixoloqlar xüsusi olaraq təhtəlşüur mövzusuna toxunmuşdur. Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, həqiqətən təhtəlşüur bizim davranışlarımıza əhəmiyyətli dərəcədə təsir göstərir. Bundan əlavə, psixoanaliz müalicə metodu olaraq da ələ alınmışdır. Lakin təəssüf ki, bu müalicə metodunu seçənlərin sayında ciddi azalma müşahidə olunmuşdur. Bunun səbəbi isə belə izah olunur: uzun müddət

davam edən və maddi baxımdan bahalı olan psixoanalizin müalicə metodunun əvəzinə elə psixoanalizdən təsirlənərək formalaşan eyni zamanda, tez bitən və nisbətən ucuz olan psixoterapiyalar rəğbət görür. Eyni zamanda, dərman preparatlarından istifadə və müəyyən ruhi xəstəliklərdə istifadə olunan terapiyalar psixoanalizə olan ehtiyacın azalmasına səbəb olmuşdur [Schultz D.P, Schultz S.E 2007, 527].

Psixoanaliz nəzəriyyəsi psixologiya sahəsində mövcud olan digər psixoloji məktəblərdən həm araşdırdığı mövzu baxımından, həm də araşdırma metodları cəhətindən olduqca fərqlidir. Belə ki, psixoanalizin tədqiq etdiyi mövzu digər məktəblərin etinasızlıqla yanaşdığı nüanslardan biri hesab olunur: insanın normal olmayan davranışları. Metod baxımından psixoanaliz klinik müşahidə metodundan istifadə edir. Təhtəlşüur anlayışını isə psixoanaliz nəzəriyyəsi qədər heç bir psixoloji məktəb tədqiq etməmişdir [Schultz D.P, Schultz S.E 2007, 566]. Psixoanaliz nəzəriyyəsi o dərəcədə populyarlıq qazanmışdır ki, Q.T.Fexner, V.Vundt və E.B.Titçener kimi sahələrinin mütəxəssisi olan şəxslər yalnız müəyyən bir kəsim daxilində tanınarkən, Freyd və onun nəzəriyyəsi bütün təbəqədən olan insanlar tərəfindən tanınır və ya ən azından adını nə vaxtsa eşitdiklərini bildirir. Bəlkə də bunu demək kifayətdir ki, Freydin rəsmi sonuncusu onun vəfatından 60 il sonra olmaqla üç dəfə məşhur “Times” jurnalının üz qabığında yer almışdır [Schultz D.P, Schultz S.E 2007, 565]. Psixoanaliz sistemi öz aktuallığını hələ də qoruyub saxlamışdır və görünən odur ki, bu hələ neçə il də belə davam edəcəkdir.

Z.Freydin psixoanaliz nəzəriyyəsini təşkil edən əsas nüanslarlar bunlardır: “Topoqrafik şəxsiyyət nəzəriyyəsi”, “İnstinkt nəzəriyyəsi”, “İnkişaf nəzəriyyəsi”, “Şəxsiyyətin struktur nəzəriyyəsi”, “Narahatlıq” anlayışı. İndi isə gəlin bu nəzəriyyə və terminlərin özündə nələri ehtiva etdiklərinə və hansı mənanı daşıdıqlarına nəzər salaq.

Z.Freydin “Topoqrafik şəxsiyyət nəzəriyyəsi” müvəqqəti xarakter daşıyaraq onun digər bir əsas kəşfi olan“Şəxsiyyətin struktur nəzəriyyəsi”nin formalaşması prosesi üzərində körpü rolunu oynamışdır. Topoqrafik şəxsiyyət nəzəriyyəsinin əsasını üç anlayış təşkil edir. Bu anlayışlar eyni zamanda psixoanalizin də təməl daşları hesab olunur. Bunlar “şüur” (consciousness), təhtəlşüur (subconscious), qeyri-şüuri (unconscious) və şüuröncəsi (bilinçöncesi-preconscious) anlayışlarıdır. Bəzən ədəbiyyatlarda təhtəlşüur və qeyri-şüuri mərhələlər bir-birinin əvəzinə işlənilir və ya tamamilə səhv salınır. Mənbələrdə Z.Freydin bəzi əsərlərində (“Dream Psychology” (1920)- “Yuxu psixologiyası”, “The Psychopathology of Everyday Life” (1901)- “Gündəlik həyatın psixopatologiyası”, “Jokes and their Relations to the Unconscious” (1905)- “ Zarafatlar və onların şüursuzluqla əlaqələri”, “Totem and Taboo” (1913)- “Totem və tabu” və s.) qeyri-şüuri, bəzi əsərlərində isə (“Quelques

Consideration Pour Une Etude Comparative des Paralysies Motrices Organiques et Hysteriques" (1893)- "Üzvi və histerik motor ifliclərinin müqayisəli tədqiqi üçün bəzi mülahizələr") təhtəlşüur terminindən istifadə etdiyinin şahidi oluruq. Həmin əsərdə Freyd belə qeyd edir: "Təəssürat təhtəlşüurda (almanca-le subconscient) qaldığı təqdirdə yox edilməsi mümkün olmur". Ehtimal olunur ki, "təhtəlşüur" ifadəsi ilə o, "şüurlu olmayan zehni prosesləri"i izah etmək üçün istifadə etmişdir [Sevinç 2019, 133-136].

Psixologiya sahəsinə aid olan şüur (conscious) "özümüzü və ətraf mühitimizi qavramların, anların və düşüncələrin fərqində olacaq bir şəkildə müşahidə etməyi, eyni zamanda davranış və koqnitiv fəaliyyətləri başlayıb bitirə bilməyi təmin edən nəzarət"i ifadə edir. Psixoanaliz nəzəriyyəsində isə "fərdin müəyyən bir anda fərqində olduğu şeylərin hamısını əhatə edən ruh halıdır" [Sevinç 2019, 128]. Şüur zehnin xarici aləmdən və insanın daxili dünyasından gələn qavrayışların fərqində olan hissəsidir. Bədənə məxsus olan məfhumları, düşüncə proseslərini əhatə edən şüur müxtəlif davranış formaları və ünsiyyət vasitəsilə xaricə ötürülür. İnsanın fərqində olduğu zehni proseslərlə birlikdə, fərqində olmadığı zehni proseslərin mövcud olması haqqındakı fikirlər həmişə tədqiqatçıların maraq dairəsində olmuşdur. Bu səbəblə də, şüurun əksi olan və həmişə onunla tən gedən digər bir termin isə "təhtəlşüur" (subconscious) adlandırdığımız "şüuraltı" anlayışıdır. Bu termin "fərdin məlumatı olmadan meydana gələn zehni proseslər, şüurun alt və xarici hissəsi" deməkdir [Sevinç 2019, 128]. Üçüncü bir anlayış isə "qeyri-şüuri" (unconscious) terminidir. Ümumi mənada ifadə etsək, "qeyri-şüuri" şüurlu şəkildə olan dərketmənin xaricində qalan bütün zehni prosesləri əhatə edir. Belə olduğu təqdirdə şüuröncəsi hadisələr də buraya daxildir. Senzura mexanizmasının mane olması səbəbi ilə şüur səviyyəsinə qalxma ehtimalı olmayan prosesləri əhatə edir. Bu proseslərin tərkibi isə məntiqə uyğun olmayan və həddindən artıq miqdarda təmin olunmaq istəyən impulslardan ibarətdir. Bu impluslar şübhəsiz ki, şüur səviyyəsində mövcud olan əxlaq normalarına zidd olan istəklərdən təşkil olunmuşdur. Bu tip impulsların məkanı şüuröncəsi səviyyəsi olmasına baxmayaraq psixoanalitik müalicə prosesi əsnasında şüur səviyyəsinə qalxmağa müvəffəq olur [Geçtan 1998, 27]. Şüuröncəsi adlanan qeyri-şüuri səviyyə diqqətin yönləndirilməsilə şüur səviyyəsində dərk oluna bilən zehni prosesləri əhatə edir. Zehnin bu pilləsində həqiqətə uyğun olan çətinlikləri həll etmək üçün yollar axtarmaq kimi inkişaf etmiş düşüncə forması ilə bərabər xəyal qurmaq kimi ibtidai hesab olunan davranış forması da mövcuddur [Geçtan 1998, 26]. Freyd topoqrafik şəxsiyyət nəzəriyyəsini formalaşdırdıqdan sonra klinik fəaliyyəti əsnasında bəzi halların bu nəzəriyyəyə uyğun gəlmədiyini aşkar etdi. Belə olduğu təqdirdə, o, "Şəxsiyyətin struktur nəzəriyyəsi"ni qurmağa başladı. Lakin yeni bir

nəzəriyyənin ərsəyə gəlməsi təsadüf nəticəsində, birdən-birə baş verməmişdir. Bu müddət ərzində Freyd bir neçə nəzəriyyə və nüanslar ortaya qoymuşdur. Psixoanaliz baxımından böyük əhəmiyyət kəsb edən həmin nüanslara nəzər salaq. Bunlardan birincisi, “İnstinkt nəzəriyyəsi”dir. Z.Freyd instinktləri əsas iki hissəyə ayırmış və onları “həyat instinktləri” (life instincts-eros) və “ölüm instinkti” (death instinct-thanatos) olaraq adlandırmışdır. Həyat instinktləri insan soyunun davamlılığını təmin edir. Bu instinktlərə misal olaraq aclıq, susuzluq və cinsi ehtiyacı göstərmək olar. Freyd həyat instinktini hərəkətə gətirən enerjini “libido” adlandırır. O, bu instinkt ilə çox maraqlanmış və iş o yerə gəlib çatmışdır ki, psixoanalizin başlanğıc dövrlərində fərdin bütün davranışlarını libido ilə əlaqələndirmiş və izah etməyə çalışmışdır (Geçtan 1998, 30). Z.Freyd ölüm instinktini digər instintlərə nisbətən daha az tədqiq etmişdir. Ümumi nəzərə əsasən “həyatın məqsədi ölümdür” deyərək hər bir insanın fərqində olmadığı bir ölüm istəyinin olduğunu qeyd edir. Ölüm instinktinin əhəmiyyətli bir törəməsi “aqressivlik impulsu” olub, fərdin özünə yönəlmiş dağıdıcı meyllərinin xarici dünyadakı obyektlərə tərəf istiqamətləndirilməsini ifadə edir. Fərd bəzən insanlarla mübarizə aparır və ya onların əleyhinə olan davranışlar icra edir. Bunun səbəbi odur ki, onun özünü yox etmək istəyi ilə bunun ziddi olan həyat instinktləri bir-birini neytrallaşdırır və ya biri digərininin yerinə keçir. Məsələn, qidalanmaq prosesində aclıq instinkti dağıdıcılıq instinktinin yerinə keçmişdir. Başqa sözlə desək, bu proses qidanı dişləmək, çeynəmək, udmaq və doymaq davranışları ilə təmin olunur [Freud 1923, 41; Geçtan 1998, 32].

Z.Freydin instinkt anlayışı zaman içərisində müxtəlif dəyişikliklərə məruz qalsa da hər zaman bədən və zehin arasındakı sərhəd üzərində yerləşən bir məfhum olmuşdur. Belə ki, orqanizmdən xaric olan stimulların təşkil etdiyi psixoloji təsir nəticəsində zehin onunla əlaqəli olan bəzi orqanları hərkətə gətirir. Başqa sözlə desək, instinkt fizioloji ehtiyacları ehtiva edən daxili stimulların psixoloji görünüşlü təmsilcisidir. Freyd tənəffüs və həzm proseslərini təmin edən enerji ilə düşünmək və xatırlamaq proseslərini təmin edən enerjinin eyni olduğunu müdafiə etmiş və ikinci prosesin enerjisini “ruhsal enerji” adlandırmışdır. Enerjinin qorunması qanununa əsasən o, yox olmur, sadəcə bir formadan digərinə çevrilir. Beləliklə, ruhi enerji fizioloji enerjiyə çevrilir və ya əksi olan proses baş verir. İnstinktlər isə məhz enerji ilə bədən arasında yerləşir. Yuxarıda da qeyd etdiyimiz kimi, instinkt daxili stimulların psixoloji formasıdır. Onun qaynaqlandığı həmin stimul “ehtiyac”, psixoloji təmsilcisi isə “istək” adlanır. Məsələn, fizioloji baxımdan ac olmaq prosesi psixoloji baxımdan qida ehtiyacı olaraq qəbul edilir. İstək burada davranışı motivasiya edən bir faktor rolunu oynayır və beləliklə də insan qida axtarışına başlayır. Bununla da instinkt eyni zamanda davranışın istiqamətini

də müəyyən edir. İnstinktin dörd xüsusiyyəti vardır ki, bunlar “mənbə”, “məqsəd”, “obyekt” və “hərəkətverici qüvvə” adlanır. Mənbə yuxarıda bəhs etdiyimiz ehtiyacı özündə ehtiva edir. Məqsəd bədənə xas stimulun təmin olunaraq aradan qaldırılması prosesini əks etdirir. Lakin əvvəlcə bu prosesi həyata keçirmək üçün ehtiyacı təmin edə bilən obyekt müəyyən edilməlidir. Hərəkətverici qüvvə isə instinktin ehtiyacının gücləndiyi nisbətdə artan və onu hərəkətə gətirən elementdir. Yəni, insanın aclıq səviyyəsi artıqca buna paralel olaraq halsızlıq səviyyəsi də artır və nəticədə hərəkətverici qüvvə mexanizmi də özünün yüksək səviyyəsinə çatır. Bundan əlavə, instinktin “reqressiv”, “müdafiə” və “təkrarlanma” xüsusiyyətləri də vardır ki, gündəlik həyatda fərdin orqanizmində mühüm rol oynayır. Belə ki, reqressiv xüsusiyyət sayəsində ehtiyac təmin olunduqdan sonra fərd instintktin ortaya çıxdığı vaxtdan əvvəlki vəziyyətə geri qayıdır. Müdafiə mexanizmi isə orqanizmin tarazlığını müəyyən bir səviyyədə saxlamaq vəzifəsini icra edir. İmpulsları təqib edən istirahət mərhələsində isə instinkin təkrarlanma xüsusiyyəti özünü büruzə verir [Geçtan 1998, 28-29].

Ziqmund Freydin düşüncələri arasında ən çox tənqid və hücuma məruz qalan nəzəriyyəsi şübhəsiz ki, 1915-ci ildə nəşr olunan “Cinsi nəzəriyyəyə dair üç traktat” (almanca-“Drei Abhandlungen zur Sexualtheorie”) adlı məqaləsində bəhs etdiyi və uşaqların cinsi instinktlərinin təhlilini ehtiva edən “İnkişaf nəzəriyyəsi” olmuşdur. Freyd klinik fəaliyyətinin ilk illərində yetişkin şəxslərdə əmələ gələn nevroz ilə uşaqlıq dövründə yaşanan cinsi xarakterli sarsıdıcı hadisələr arasında olduqca əhəmiyyətli olan əlaqələrin olduğu qənaətinə gəlmişdir. O, hətta normal qəbul edilən insanların inkişaf prosesində də oxşar hadisələrin olması ehtimalı olduğunu bildirmişdir. Pasiyentləri üzərində apardığı müşahidələr nəticəsində müəyyən etmişdir ki, uşaqlıq dövrü ilə əlaqədar olan hadisə və fantaziyalar arasında ümumi cəhətlər vardır. Məhz bu oxşarlıqlar uşaq cinsiyyəti ilə əlaqləli olan bir nəzəriyyənin əsasını formalaşdırdı. Freyd daha sonra bu məlumatları uşaqlar üzərində apardığı müşahidələri ilə də təsdiqlədi. Bunlarla yanaşı, o, özünün də yaşadığı hadisələri təhlil etməyə başlayaraq əldə etdiyi məlumatları psixoanaliz vasitəsi ilə izah etmişdir [Geçtan 1998, 33]. Uşaqlarda psixoloji və cinsi inkişaf hər biri özündən əvvəlki mərhələnin üzərində formalaşan beş mərhələdən ibarətdir. Bunlar “Oral mərhələ”, “Anal mərhələ”, “Fallik mərhələ”, “Gizil (Latent) mərhələ” və “Genital mərhələ” adlanır. Hər bir mərhələ digəri bitdikdən sonra başlayır və müəyyən vaxta qədər davam edir. Oral mərhələ uşağın 1-1,5 yaşına qədər, anal mərhələ 3 yaşının sonuna qədər, fallik mərhələ 5 yaşının sonuna qədər, gizil mərhələ 5-6 yaşından 11-13 yaşına qədər və nəhayət genital mərhələ 11-13 yaşından yeniyetməlik dövrünə qədər davam edir.

Z.Freyd “Şəxsiyyətin struktur nəzəriyyəsi”ndən ilk dəfə 1926-ci ildə nəşr olunan “Eqo və İd” adlı məqaləsində bəhs etmişdir. Beləliklə o, topoqrafik şəxsiyyət nəzəriyyəsinin yerinə daha əhatəli və özündə yeni kəşfləri ehtiva edən nəzəriyyənin əsasənə qoydu. Bu nəzəriyyəyə əsasən insan şəxsiyyəti üç əsas sistemdən ibarətdir: id, eqo və super-eqo. Fərdin davranışları məhz bu üç foktorun bir-birilə olan qarşılıqlı əlaqəsinin bəhrəsidir. Buna görə də, id, eqo və super-eqo ayrı-ayrılıqda fəaliyyət göstərə bilmir. İndi isə gəlin bu terminlərin hansı funksiyalar icra etdiklərinə nəzər salaq. Belə ki, id şəxsiyyətin əsas təməl daşıdır. O özündə irsi hesab olunan instintləri əhatə edən və anadagəlmə mövcud olan psixoloji potensialı ehtiva edir. Ruhi enerjinin mənbəyi olan id sistemin digər iki nümayəndəsinin fəaliyyəti üçün lazım olan enerjini təmin edir. Freyd idi “həqiqi ruhi varlıq” adlandırır. İdə belə tərif verməsinin səbəbi isə idin fəaliyyət göstərdiyi dünyanın obyetiv deyil subyektiv xarakter daşımasıdır. Tutumundan artıq enerji ilə yükləndiyi zaman orqanizmdə gərginliyə səbəb olan id dərhal təmin olunmaq və enerjisini boşaltmağı tələb edir. Bu proses isə idin “həzz prinsipi” adlanır. Həzz prinsipi həyata keçərkən iki hadisə baş verir və bunlar “refleks hərəkətlər” və “ilkin proseslər” adlanır. Refleks hərəkətlərə misal olaraq asqırmaq və göz qırpmaq kimi anadangəlmə reaksiyaları misal göstərmək olar ki, bu zaman gərginlik dərhal aradan qalxır və idin tələbi təmin olunur. İlkin proseslər adlanan ikinci reaksiya formasında isə vəziyyət daha mürəkkəb olur. Belə ki, əvvəlcə gərginliyi aradan qaldırmaq üçün fərdin ehtiyacının olduğu obyekt və ya şəxsin obrazı formalaşdırılır. Bu ilkin proses əsnasında baş verir. Məsələn, ac olan şəxs zehnində qidanın görüntüsünü canlandırır. Lakin bu proses təkbaşına gərginliyi aradan qaldırmır. Çünki qidanın təsviri ilə doymayan insan ikinci prosesə doğru meyl edir və bu zaman şəxsiyyətin ikinci ünsürü olan eqo meydana çıxır. Ac olan insanın bu ehtiyacını təmin etməsi üçün qidanı tapıb yeməsi lazımdır. Daha əvvəl də qeyd etdiyimiz kimi zehində canlandırılan təsəvvür ehtiyacı aradan qaldırmadığı üçün insan özünün ruhi həyatı ilə xarici dünyanı bir-birindən ayıra bilməyi bacarmalıdır. Bu bacarıq isə təbii ki, hiss üzvləri vasitəsilə həyata keçirilir. Enerjinin instinktin doymasını təmin edən davranış üçün sərf etmək prosesi “obyekt seçimi” adlanır. İd eqodan fərqli olaraq lazım olan obyekti digərlərindən ayıraraq seçmək qabiliyyətinə malik deyil. Ona görədir ki, ac olan körpə əlinə keçən hər hansı bir obyektə sarılaraq onu ağzına aparır və ehtiyacını təmin etməyə çalışır. Təsəvvür ilə gerçək olanı bir-birindən ayırmaq funksiyasını eqo icra edir və bu proses “identifikasiya” adlanır. Bundan başqa eqonun daha bir əhəmiyyətli vəzifəsi vardır ki, bunun icrasında o bütün gücünü iddən alır və ondan ayrı mövcud ola bilmir. Belə ki, eqo id, super-eqo və ətraf aləmin bir-birilə münaqişə halındakı istək və tələblərinin tarazlığını digər ifadə ilə desək, uzlaşmasını təmin edir [Geçtan

1998, 44-46]. Bəzən eqo bu iki qüvvə arasında sıxışıb qalır. Bu vəziyət nə qədər şiddətli olarsa fərdin daxilindəki təzyiq də bir o qədər şiddətli olur. Eqo bu şiddəti azaltmaq məqsədi ilə müdafiə mexanizmlərinə müraciət edir. O idin həzz prinsipinə cavab olaraq reallıq prinsipini (reality principle) formalaşdırır. İdin əksinə şüurlu xarakter daşıyan eqo iddən gələn tələblərin gerçəkləşəcəyi təqdirdə xarici dünya tərəfindən necə qarşılanacağını düşünərək hərəkət edir. Lakin bu o demək deyildir ki, eqo tamamilə şüurludur, əksinə eqonun daxili qatları şüursuzdur. Bəzən elə hallar da olur ki, eqo iddən gələn istəkləri deyil, super-eqonun ona təlqin etdiyi tələbləri təzyiq altında saxlayır. Freyd qeyd edir ki, belə olan halda insanda günahkarlıq duyğusu baş qaldırır. O, bu vəziyyəti tipik nevroz halı hesab edir və dinin mənbəyini də həmin nevroz ilə əlaqələndirir [Köse 2016, 35]. Şəxsiyyətin üçüncü və ən sonda inkişaf edən səviyyəsi super-eqo adlanır. Fərdin vicdan və əxlaq təmsilcisi olan super-eqo eqoya cəmiyyətin tələb və normalarını təlqin edir. Super-eqonun əsas vəzifəsi hər hansı bir məfhumun düzgün və ya yanlış olduğunu müəyyən edərək cəmiyyət tərəfindən müəyyən edilmiş ölçülərə görə hərəkət etməkdir. Belə ki, super-eqonun əsas üç funksiyası vardır:

1) İddən gələn instinktləri təzyiq altında tutmaq və onların gerçəkləşməsinə mane olmaq. Bu instinktlər xüsusilə cəmiyyət tərəfindən xoş qarşılanmayacaq cinsi və ya dağıdıcı xarakter daşıyır.

2) Eqonu həqiqi məqsədlər əvəzinə əxlaqi məqsədlərə istiqamətləndirmək.

3) Qüsursuz olmağa cəhd göstərmək. Eqo instinktiv istəklərin təmin olunmasını təxirə salarkən super-eqo bu istəkləri tamamilə yox etməyə çalışır. Beləliklə, id şəxsiyyətin bioloji, eqo psixoloji, super-eqo isə sosial tərəfini özündə təcəssüm etdirir [Geçtan 1998, 47-48].

Psixoanaliz nəzəriyyəsinin ilk illərində insanın yaşadığı duyğular arasında ən ağırı və çətini olaraq tanınan “Narahatlıq” (anxiety) anlayışının mənbəyi bioloji olaraq qəbul edilmişdir. Lakin Z.Freyd topoqrafik şəxsiyyət nəzəriyyəsinin yerinə şəxsiyyətin struktur nəzəriyyəsini inkişaf etdirdikdən sonra narahatlığı eqonun funksiyası olaraq təqdim etdi. Beləliklə, artıq narahatlıq anlayışı bioloji yox psixoloji bir fenomenə çevrildi. Freyd bu anlayışdan 1926-cı ildə çap olunan “Maneələr, simptomlar və narahatlıq” adlı əsərində bəhs etmişdir. Freydin fikrinə görə, narahatlıq anlayışı fiziki və sosial mühitdən gələn təhlükələrə qarşı fərdi xəbərdar etmək, lazımi əlaqəni saxlamaq və həyatını davam etdirmək kimi funksiyalara dəstək olmaq vəzifəsini icra edir. Lakin əgər narahatlıq “nevrotik narahatlıq” da olduğu kimi həqiqətə uyğun olmayan və məntiqə uyğun gəlməyən xarakterlərə sahib olarsa müsbət funksiyalarını itirərək anormal davranışlara səbəb olur. Z.Freyd normal insanın yaşadığı narahtlıq ilə nevrotik insanın yaşadığı narahatlıq arasındakı fərqin təkcə bu hadisənin baş vermə istensivliyində deyil, həmçinin keyfiyyət

baxımından da fərqləndiyini qeyd edir. Belə ki, gündəlik həyatda hamının arada bir yaşadığı narhatlıq “realist” narahatlıq adlanır. Xarici mühitdə mövcud olan real obyektlər səbəbi ilə baş verən narahatlıq “qorxu” hissi ilə eyni mənanı daşıyır. Bu tip narahatlıq gözlənilən və ya yaxınlaşan bir təhlükənin qavranılması və nəticəsində formalaşan bir reaksiyadır. O, həmçinin real və məntiqə uyğunluq xüsusiyyəti ilə də nevrotik narahatlıqdan fərqlənir. Digər tərəfdən, heç bir səbəblə əlaqəli olmayan və ya təhlükəsiz bir obyektə qarşı olan qəzəb şəklindəki nevrotik narahatlıq hər zaman məntiqsiz hesab olunur. Bu tip narahatlıq yetişkinlik dövründəki təcrübələrdən yox, uşaqlıq illərində yaşanan hadisələrdən qaynaqlanır. Psixoanalizin ilk illərində Freyd realist olmayan narahatlığı istifadə olunmayan ruhi enerjinin vasitəli formada olan simptomu olaraq ifadə etmişdir. Yəni, həyat instinktləri vasitəsiz formada özünü ifadə üsulu tapa bilmədikdə həmin onların enerjiləri istiqamətini dəyişərək narahatlığa çevrilir [Geçtan 1998, 48-49].

Eqo daim üç təhlükə ilə qarşı-qarşıyadır:

1. Eqonun davranışlarına mane olmaq və xarici mühitdən gələn hücumlar.
2. İdin instinktiv və realist olmayan istəkləri.
3. Super eqonun cəzalandırılması.

Məhz narahatlıq eqonun təhlükələrdən qaçış üsullarının vasitəsi olduğu üçün bu üç təhlükəyə qarşı da üç növ narahatlıq vardır:

1. Reallıq narahatlığı. Bu növ narahatlıq qorxu hissi ilə sinonimdir. İnsanda ətraf mühitdə mövcud olan təhlükəli bir vəziyyətin nəticəsi olaraq meydana çıxır.

2. Vicdani narahatlıq. Eqoda günahkarlıq duyğusuna səbəb olur. Xüsusilə, super eqonun vicdan funksiyası üçün təhlükəli hesab olunan hallarda meydana çıxır.

3. Nevrotik narahatlıq. İnstinktlərdən gələn təhlükənin dərk olunması səbəbi ilə yaranan bu növ narahatlıq əslində, eqonun instinktlərin qəfil hücumunun qarşısını ala bilməyəcəyi təqdirdə nəticəsinin nə olacağını dərk etməsi halıdır. Reallıq və vicdani narahatlıq zamanı insan hiss etdiyi duyğunun fərqindədir, lakin nevrotik narahatlıqda bu belə deyil. Normal şərtlər daxilində olduqda eqonun mühafizə mexanizmləri cəmiyyətə uyğun olmayan və ya narahatlığa səbəb olma ehtimalı olan impuları təzyiq altına tutaraq təhtəlşüura yerləşdirir. əgər eqonun bu funksiyası sıradan çıxarsa, fəaliyyəti təmin edən enerji uşaqlıq dövründə mövcud olan ilkin narahatlığa bənzər duyğulara çevrilir. Belə bir duyğunu adi müdafiə mexanizmləri vasitəsilə aradan qaldıra bilməyən eqo bir çox hallarda fərdin əlaqə qurmaq bacarığını korlayacaq tərzdə olan bəzi müdafiə mexanizmlərinə çüraciət edir ki, bunun da nəticəsi nevrotik simptomların yaranmasına gətirib çıxarır [Geçtan 1998, 52-53].

**3.Nəticə**

Məqalədə də göründüyü kimi, Psixoanaliz nəzəriyyəsinin özünəməxsus baxış bucağı və fəaliyyət prinsipi vardır. Bu fakt istər nəzəriyyənin yaranma prosesində, istər metodologiyasında, istərsə də quruluş sxemində özünü büruzə verir. Nəticə etibarilə qeyd edə bilərik ki, Psixoanaliz məktəbinin qurucusu olan Ziqmund Freyd bu cərəyanı ərsəyə gətirərkən dövrünün tanınmış tədiqatçılarının təsiri ilə yanaşı özünün şəxsi həyatında baş vermiş hadisələrin təhlilindən də yararlanmışdır. Məqalənin giriş hissəsinə nəzər saldıqda bir neçə tezis və hipotezislər ilə qarşılaşırıq ki, məhz bu nüans Z.Freydin uşaqlıq dövründə yaşadığı hadisələrin onun fəaliyyətinə və qurduğu nəzəriyyənin yaranmasına olan böyük təsiri haqqındakı tezisinin öz təsdiqini tapması deməkdir. O, eyni zamanda fəaliyyətinin ilk illərində pasiyentlərin müalicəsində istifadə etdiyi metodlar və bu müalicə proseslərindən əldə etdiyi nəticələrdən gəldiyi qəanətlərə də laqeyid yanaşmamışdır.

Bundan əlavə, Freydin dinə qarşı olan mənfi münasibətinin uşaqlıqda yaşadığı hadisələr ilə sıx əlaqəli olduğunu deyə bilərik. Fikir və düşüncələrini bu baxış bucağından qələmə alan psixoloqun dinə qarşı olan antipatiyası əsərlərinin hər bir sətrində özünü büruzə vermişdir. O, əsərlərini tamamilə şəxsi qənaətləri və dünyagörüşü çərçivəsində qələmə almışdır ki, bu da həm əsərlərinin, həm də şəxsi düşüncələrinin ciddi tənqidlərə məruz qalmasına səbəb olmuşdur.

Bununla yanaşı araşdırmamız nəticəsində ortaya çıxan, lakin hələ də qaranlıq qalan və nəticə etibarilə tədqiq olunmağa ehtiyacı olan bir neçə nüansı da qeyd etmək istərdik. Belə ki, Z.Freyd insan şəxsiyyətinin formalaşmasında əsas rolu onun uşaqlıq dövründə yaşadığı hadisələrin oynadığını qeyd edir. Şəxsiyyətin struktur nəzəriyyəsinin əsasını məhz bu fikir təşkil edir. Bəs görəsən, psixoloq insan həyatının sonrakı mərhələlərində baş verən hadisələrin rolunu da nəzərə alıbmı? Başqa sözlə desək, şəxsiyyətin təşəkkül prosesində təkcə uşaqlıq hadisələri böyük əhəmiyyət kəsb edir, yoxsa sonrakı illərdə baş verən hadisələr də öz izini buraxır? Digər bir nüans isə Psixoanaliz nəzəriyyəsinin detalları arasındakı əlaqə və bağlılığın zəifliyinin nədən qaynaqlanması məsələsidir. O, həyatının son illərində və səksən yaşında olmasına baxmayaraq qurduğu psixoloji məktəbin bütün detallarını bir daha nəzərdən keçirmişdir. Lakin tədqiqatlar nəticəsində məlum olmuşdur ki, bu detallar arasında yenə də müəyyən qədər uyğunsuzluq və qeyri-dəqiqlilik mövcuddur. Bütün bu səbəblər Ziqmund Freyd yaradıcılığının və Psixoanaliz nəzəriyyəsinin geniş şəkildə araşdırılmasına və tədqiq olunmasına zəmin yaradır.

Bütün bunlardan əlavə qeyd olunmalıdır ki, psixologiya sahəsində xüsusi yeri olan Psixoanaliz nəzəriyyəsi hələ də öz aktuallığını qoruyub saxlamışdır. Təsadüfi deyildir ki, bu sahədə tədqiqat aparan dünya şöhrətli bir çox elm adamları psixoanaliz nəzəriyyəsini müxtəlif aspektlərdən araşdırmış və onu

geniş müzakirə obyektinə çevirmişdir. Mövzu ilə əlaqəli mənbələrə baxdıqda, bir çox əhəmiyyətli nüansların- istər Ziqmund Freydin din haqqındakı görüşləri, istərsə də Psixoanaliz nəzəriyyəsinin müxtəlif aspektlərinin tədqiq olunduğunun şahidi oluruq. Bunu nəzərə alaraq deyə bilərik ki, ölkəmizdə həm Z.Freyd yaradıcılığının, həm də onun ərsəyə gətirdiyi psixoloji cərəyanın daha çox araşdırılmağa, tədqiq olunmağa və öyrənilməyə ehtiyacı vardır. Məhz bu baxımdan, ümid edirik ki, müəllifi olduğumuz tədqiqat əsəri yaxın gələcəkdə ölkəmizdə də Z.Freyd yaradıcılığının və Psixoanaliz nəzəriyyəsinin fərqli aspektlərdən tədqiq edilməsinə stimul olacaqdır.

## ƏDƏBİYYAT

**1.** Ali, A. (2015). *Psikoloji ve din*. İstanbul, İz Yayıncılık.
**2.** Freud, S. (1923). *The Ego and the Id*. The Standard Edition of the Complete Psychological Works of Sigmund Freud, Volume XIX (1923–1925): The Ego and the Id and Other Works, 1–66.
**3.** Freud, S. (2012/1). *Totem ve Tabu* (çev. H. İlhan). İstanbul, Sayfa Yayınları.
**4.** Freud, S. (2012/2). *Psikanaliz Üzerine* (çev. İ. Kırımlı). İstanbul, Sayfa Yayınları.
**5.** Freud, S. (2012/3). *Bir Yanılsamanın Geleceyi* (çev. İ. Kırımlı). İstanbul, Sayfa Yayınları.
**6.** Freud, S. (2012/4). *Rüyaların Yorumu II* (çev. İ. Kırımlı). İstanbul, Sayfa Yayınları.
**7.** Freyd, Z. (2014). *Yuxuların yozumu* (tərc. N. Qocabəyli). Bakı, Qanun Nəşriyyatı.
**8.** Freyd, Z. (2015). *Bir illuziyanın gələcəyi* (tərc. A. Gündüz). Bakı, Xan Nəşriyyatı.
**9.** Fromm, E. (2017). *Psikanaliz ve Din* (çev. E. Erten). Ankara, Say Yayınları.
**10.** Fromm, E. (2018). *Psixoanaliz və din* (tərc. K. Məmmədov). Ankara, Türkkitab Az.
**11.** Geçtan, E. (1998). *Psikanaliz ve sonrası*. İstanbul, Remzi Kitabevi.
**12.** Gökgül, A. N. (2022). Nöropazarlama yaklaşımlarını Sigmund Freud’un yapısal zihin modeli çerçevesinde değerlendirmek. *Elektronik Sosyal Bilimler Dergisi*, *21*(82), 771–783.
**13.** Həsənova, N. (2018). Ziqmund Freydin “Musa və təktanrıçılıq” əsərində dinə baxışı. *Azərbaycan İlahiyyat İntitutu, Din Araşdırmaları Jurnalı*, dekabr (№1), 45–59.

**14.** Koç, M. (2002). Din Psikolojisi Açısından Psikanaliz ve Din Bağlamında S.Freud`un “Totem ve Tabu” Adlı Eseri Üzerine Bazı tespitler. *Marife: Dini Araştırmalar Dergisi [Bilimsel Birikim]*, *1*(3), 67–83.
**15.** Köse, A. (2016). *Freud ve Din*. İstanbul, İz Yayıncılık.
**16.** Kenny, D. T. (2019). *Freud, Sigmund.* The University of Sydney, Sydney, NSW, Australia.
**17.** Qənbərov, A., & Həsənov, B. (2019). *Din psixologiyası*. MDTF, Bakı.
**18.** Schultz, D. P., & Schultz, S. E. (2007). *A History of Modern Psychology* [*Modern Psikoloji Tarihi,* Türkçe çeviri: Yasemin Aslay]. Kaknüs Yayınları.
**19.** Sevinç, K. (2019). Freudyen Psikolojide Bilinçaltı ve Bilinçdışı Kavramları Arasındaki Benzerlikler ve Farklılıklar. *Kilitbahir*, sayı 15, 125–158.
**20.** Sowden, R. (2016). *Freud: Kilit Fikirler* (çev. M. İnan). İstanbul, Optimist Yayınları.

## REFERENCES

**1.** Ali, A. (2015). *Psychology and religion*. Istanbul: Iz Yayincilik. (in Turkish)
**2.** Freud, S. (1923). *The ego and the id*. The Standard Edition of the Complete Psychological Works of Sigmund Freud, Volume XIX (1923–1925): The Ego and the Id and Other Works, 1–66. (in English)
**3.** Freud, S. (2012/1). *Totem and taboo* (Trans. by H. Ilhan). Istanbul: Sayfa Yayinlari. (in Turkish)
**4.** Freud, S. (2012/2). *On psychoanalysis* (Trans. by I. Kirimli). Istanbul: Sayfa Yayinlari. (in Turkish)
**5.** Freud, S. (2012/3). *The future of an illusion* (Trans. by I. Kirimli). Istanbul: Sayfa Yayinlari. (in Turkish)
**6.** Freud, S. (2012/4). *The interpretation of dreams II* (Trans. by I. Kirimli). Istanbul: Sayfa Yayinlari. (in Turkish)
**7.** Freyd, Z. (2014). *Interpretation of dreams* (Trans. by N. Qocabeyli). Baku: Qanun Neshriyyati. (in Azerbaijani)
**8.** Freyd, Z. (2015). *The future of an illusion* (Trans. by A. Gunduz). Baku: Khan Neshriyyati. (in Azerbaijani)
**9.** Fromm, E. (2017). *Psychoanalysis and religion* (Trans. E. Erten). Ankara: Say Yayinlari. (in Turkish)
**10.** Fromm, E. (2018). *Psychoanalysis and religion* (Trans. by K. Mammadov). Ankara: Turkkitab Az. (in Azerbaijani)
**11.** Gectan, E. (1998). *Psychoanalysis and beyond*. Istanbul: Remzi Kitabevi. (in Turkish)

**12.** Gokgul, A. N. (2022). Evaluating neuromarketing approaches within the framework of Sigmund Freud’s structural mind model. *Elektronik Sosyal Bilimler Dergisi*, *21*(82), 771–783. (in Turkish)

**13.** Hasanova, N. (2018). Freud’s view on religion in "Moses and Monotheism". *Azerbaijan Institute of Theology, Journal of Religious Studies*, December (1), 45–59. (in Azerbaijani)

**14.** Koc, M. (2002). Psychoanalysis and religion in terms of psychology of religion: Some observations on Freud’s work “Totem and Taboo”. *Marife: Dini Arastirmalar Dergisi* [Scientific Accumulation], *1*(3), 67–83. (in Turkish)

**15.** Kose, A. (2016). *Freud and religion*. Istanbul: Iz Yayincilik. (in Turkish)

**16.** Kenny, D. T. (2019). *Freud, Sigmund.* The University of Sydney, Sydney, NSW, Australia. (in English)

**17.** Ganbarov, A., & Hasanov, B. (2019). *Psychology of religion*. MDTF, Baku. (in Azerbaijani)

**18.** Schultz, D. P., & Schultz, S. E. (2007). *A history of modern psychology* (Trans. by Y. Aslay). Kaknus Yayinlari. (in Turkish)

**19.** Sevinç, K. (2019). Similarities and differences between unconscious and subconscious concepts in Freudian psychology. *Kilitbahir*, 15, 125–158. (in Turkish)

**20.** Sowden, R. (2016). *Freud: Key ideas* (Trans. by M. Inan). Istanbul: Optimist Yayinlari. (in Turkish)